Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası 2019-№2 Серия общественно-политических наук

**Səfərova Vüsalə Abbas qızı**
*Bakı Slavyan Universiteti*
*safarova.v@mail.ru*

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ESTETİK TƏRBİYƏSİ VƏ İLKİN YARADICILIQ QABİLİYYƏTLƏRİNİN İNKİŞAFI

***Açar sözlər:*** *estetik tərbiyə, məktəbəqədər yaşlı uşaqlar, yaradıcılıq qabiliyyəti, musiqi, rəsm, təbiət gözəllikləri.*

***Ключевые слова:*** *эстетическое воспитание, дети дошкольного возраста, творческие способности, музыка, рисование, красота природы.*

***Key words:*** *esthetics education, preschool children, creative ability, music, art, natural beauty.*

Böyüməkdə olan gənc nəslin hərtərəfli və ahəngdar şəxsiyyət kimi formalaşmasına, cəmiyyət üçün layiqli vətəndaş kimi yetişməsinə zəmin yaradan amillərdən biri də estetik tərbiyə və yaradıcılıq qabiliyyətlərinin inkişafıdır.

“Estetik tərbiyə insanda, həyatda, təbiətdə, incəsənətdə gözəllik və ülviliyi görmək, duymaq, qavramaq, düzgün başa düşmək, sevmək, qiymətləndirmək, yaratmaq bacarığının əldə olunması və təkmilləşdirilməsinə yönəldilmiş tədbirlər sistemidir” (1;147)

Estetik tərbiyə uşaqlarda gözəllik hissləri yaradır, inkişaf etdirir ki, bu da onlara öz gələcək həyatını gözəllik qanunları üzrə qurmağa zəmin yaratmış olur. Başqa sözlə, uşaqlar xeyirxahlığı gözəllik kimi qəbul etməyə, fiziki gözəllik, şux qamət, incə, qətiyyətli yeriş və sağlamlığa nail olmağa, yüksək əmək mədəniyyətinə, nəcib, dərin zəkaya yiyələnməyə can atırlar.

Estetik tərbiyənin məqsədi təbiətə, həyata, əməyə, incəsənətə, insanlar arasındakı ünsiyyətə, davranışa estetik münasibət formalaşdırmaqdır. Estetik münasibətlərin formalaşması, uşaqlarda estetik hiss, estetik zövq, bədii mühakimlərin təşəkkül tapması estetik şüur, estetik tələbat, estetik fəaliyyətlə həyata keçirilir.

Estetik tərbiyənin bu məqsədindən doğan vəzifələrini isə görkəmli alim F.Sadıqov belə qruplaşdırmışdır:

1. Estetik davranışın inkişaf etdirilməsi, estetik emosiyanın, hisslərin, münasibətin və marağın formalaşdırılması;

2. Elementar estetik şüurun formalaşdırılması;
3. Estetik fəaliyyətin dərk edilməsi;
4. Estetik və bədii yaradıcılığa sövq edən qabiliyyətlərin inkişafı. (4;490)

Estetik tərbiyənin əsas vəzifələrindən biri kimi gənc nəslin estetik mədəniyyətinin formalaşdırımasında estetik qavrayış, estetik hiss, estetik maraq, estetik tələbat, estetik zövq, estetik qiymətləndirmə anlayışlarının başa düşülməsi və həyata keçirilməsi vacibdir.

Estetik tərbiyənin əsasını estetik qavrayış təşkil edir. Belə ki, ətrafda olan gözəlliklərin insan beybində inikası estetik qavrayışla reallaşdırılır və müəyyən hisslərin yaranması ilə konkretləşdirilir.

Məsələn, təbiət gözəlliklərinə heç kəs biganə qalmır, onu qavrayır və bu zaman insanda nəcib hisslər yaranır. Estetik hisslərin köməyilə estetik maraqlar təzahür edir. Gözəlliklərin mənimsənilməsi insanın estetik maraqlarının nəticəsi olaraq estetik fəaliyyətə yönəlir, yaradıcılıq qabiliyyətinin üzə çıxmasına səbəb olur və nəticədə estetik zövqü formalaşdırır. Estetik zövq obyektiv normativlərin subyektiv qəbul olunması, gözəllik və eybəcərliyin dərk edilməsi və onlara qiymət verilməsidir.

Başqa sözlə, estetik qiymətləndirmə estetik normalara və ya iddialara istinad edərək təbiət gözəlliklərinə, incəsənət əsərlərinə, cəmiyyət üzvlərinin davranış tərzinə, ünsiyyətinə, eləcə də yaradıcılıq məhsullarına estetik münasibətləri əks etdirir. Estetik tərbiyənin bünövrəsi ailədə qoyulur. Ana laylası vasitəsilə uşaqlarda estetik hiss, estetik zövq, estetik maraqların təməli qoyulur desək yanılmarıq. Ailə uşaqlar üçün gözəlliklərin qavranılması, yaxşının pisdən seçilməsi, ilkin fantaziya və yaradıcılıq qabiliyyətlərinin formalaşması, xeyirxahlıqla bədxahlığın ayırd edilməsi, sevgi və mərhəmətin dəyərləndirilməsi, bir sözlə onlarda estetik baxışların yaranması, formalaşması üçün əvəzedilməz mühitdir.

"Estetik tərbiyənin əsası ailədə qoyulur. Uşaq təmizliyə riayət etməyi, səliqə və zövq ilə geyinməyi, mədəni davranmağı ilk ailədə dərk edir. Musiqini, mahnını əvvəlcə evdə dinləyir. Bir sözlə, onda estetik zövq və gözəlliyə doğru myelin ilk rüşeymləri ailədə yaranır" (2;488). Uşaqların sosiollaşması, onların cəmiyyətə adaptasiyası məktəbəqədər təhsil müəssisələrindən başlayır. Məktəbəqədər dövrdə uşaq şəxsiyyətinin hərtərfli və ahəngdar inkişafı üçün tərbiyənin digər tərkib hissələri ilə yanaşı estetik tərbiyə də çox böyük əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların estetik tərbiyəsi planlı, məqsədəyönlü, mütəşəkkil və sistemli şəkildə həyata keçilir. Uşaqlarda gözəllikləri dərk etmək, gözəlliklər yaratmağa maraq, həyatı gözəllik qanunlarına əsasən qurmağa meyl və buna bənzər estetik baxışların əsası məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur. Məktəbəqədər təhsil ətraf aləmin gözəlliklərini duymaq, estetik cəhətdən qavramaq və müvafiq bədii nümunələr yaratmaq üçün ilkin pillədir. (3;196)

Məktəbəqədər yaş dövründə estetik tərbiyənin özünəməxsus vəzifələri mövcuddur və bunları həyata keçirmək uşaqların dünyagörüşünün formalaşması üçün əsas şərtlərdən biridir.

Bu nöqteyi-nəzərdən məktəbəqədər təhsil müəssisələrinin qarşısında bur sıra vəzifələr durur: 1) məktəbəqədər yaşlı uşaqlarda mədəni-estetik təsəvvürləri yaratmaq və bu yönümdə sadə bilgilərlə silahlandırmaq; 2) canlı təbiətdə, ətraf aləmdə, insanın fəaliyyətində, incəsənətdə, ünsiyyət prosesində olan gözəliklər görmək, qavramaq, hiss etmək kimi keyfiyyətləri tərbiyə etmək; 3) uşaqlarda sadə yaradıcılıq qabiliyyətlərini formalaşdırmaq və inkişaf etdirmək; 4) uşaqlarda yaşa uyğun qruplar üzrə bədii yaradıcılıq bacarıqlarını nümayiş etdirmək, sövq etmək və bunun üçün şərait yaratmaq. Məktəbəqədər təhsil müəssisələrinin nümunəvi Nizamnaməsində məktəbəqədər təhsil alanların hüquqları sırasında, onların yaradıcı qabiliyyətlərinin və maraqlarının inkişaf etdirilməsi üçün zəruri şəraitlə təmin olunmaq hüquqi özünəməxsus əhəmiyyət kəsb edir. (M/q təhsil müəs. nümunəvi Nizamnaməsi. Bakı, 2012). Müasir dövrdə uşaqların məktəb təliminə tam hazırlığı məktəbəqədər təhsildən başlayır və bu dövrdə düzgün qoyulmuş təməldən çox asılıdır. Məktəbəqədər təhsil uşaqlarda tərbiyənin digər tərkib hissələrində olduğu kimi estetik tərbiyə və yaradıcılıq qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. "Məktəbəqədər təhsil uşaqların fiziki, psixoloji, idraki və sosial inkişafında, potensial imkanlarının üzə çıxarılmasında, məktəbə hazırlanmasında, sadə əmək vərdişlərinə yiyələnməsi, istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlığının qorunması və estetik inkişafında, müstəqillik, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərin, hisslərin və həyatı bacarıqların formalaşmasında mühüm rol oynayır" (M/q təh. proq. Bakı, 2012)

Məktəbəqədər təhsil proqramında (kurikulum) məktəbəqədər təhsilin məzmununun dörd inkişaf sahəsinin əks etdirdiyi göstərilmişdir: 1) fiziki inkişaf və təhlükəsizlik; 2) idrakın inkişafı; 3) estetik və yaradıcı inkişaf; 4) sosial-emosional inkişaf. Bu dövlət sənədində inkişaf sahələri üzrə məktəbəqədər yaşlı uşaqların ümumi inkişafı, təlim nəticələri, eyni zamanda, hər yaş dövrünə xas olan inkişaf və təlim standartları nəzərə çatdırılır.

Estetik tərbiyə və yaradıcılıq üzrə ümumi inkişaf və təlim nəticələri ilə müəyyənləşdirilmişdir:

Uşaq:

- sadə bədii yaradıcılıq bacarıqları nümayiş etdirir;
- mədəni-estetik təsəvvürlərə malik olur və yaradıcılıq bacarıqalrını nümayiş etdirir;
- sadə əmək bacarıqlrı nümayiş etdirir. (M/q təh. proq. Bakı, 2012)

Kurikulumda estetik vəyaradıcı inkişaf və təlim standartları orta qrup (3-4 yaş) böyük qrup (4-5 yaş), məktəbəhazırlıq qrupu (5-6 yaş) üzrə verilmişdir.

Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında estetik tərbiyə səciyyəvi xüsusiyyətə malikdir. Bu səciyyəvilik uşaqlarda estetik zövq, maraq və hislərinin tərbiyə edilməsində bədii yaradıcılıq qabiliyyətlərinin müxtəlif sahələrdə biruzə verilməsində təzahür edir. Məktəbəqədər təhsil müəssisələrində estetik tərbiyəyə və bədii yaradıcı bacarıqlarına yiyələnən uşaqlar məktəb dövründə də gözəllikləri

görmək, duymaq, ətraf aləmi müşahidə və mühakimə etmək, gözəllik yaratmaq kimi keyfiyyətləri bacarıqla inkişaf etdirirlər.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi və yaradıcılıq qabiliyyətlərinin inkişafını təmin etmək məqsədilə, hər şeydən əvvəl, bu işin təşkili formaları, üsulları və vasitələrini müəyyənləşdirmək zəruridir. Bu yönümdə Məktəbəqədər təhsil proqramında (kurikulum) uşaqların inkişaf sahələri üzrə təlim strategiyaları müəyyənləşdirilmişdir. "Təlim strategiyaları təlim prosesinin təşkilinə verilən tələbləri, istifadə edilən forma, üsul və vasitələri əhatə edir". (M/q təh. proq. Bakı, 2012)

Bu nöqteyi-nəzərdən proqramda məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi və yaradıcılıq qabiliyyətlərinin inkişafını təmin etmək üçün məqsədəmüvafiq strategiyalardan istifadə təklif edilmişdir:

- yaradıcılığa həvəsləndirən müvafiq mühitin yaradılması;
- rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;
- qiymətləndirmə bacarığının yaradılması;
- uşaqların incəsənət nümunələri vasitəsilə özünü ifadə etməyə həvəsləndirilməsi;
- uşaqların fəal şəkildə öyrənməsi, təsəvvür etməsi və yaradıcılıq fəaliyyəti göstərməsi üçün qrup otağında şəraitin yaradılması;
- yaradıcı düşünməni və özünüifadəni asanlaşdırmaq üçün müəllimin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;
- estetik inkişafın təmin edilməsi üçün ailələrin maarifləndirilməsi. (3;236)

Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrində uşaqlar üçün rəngarəng fəaliyyət planlaşdırılır. Belə ki, təlim məşğələləri zamanı məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafını təmin etmək üçün ayrı-ayrılıqda oxu, yazı, riyazi anlayışların təliminə və əzbərçiliyə çox əhəmiyyət vermək vacib deyil. Əsas uşaqların nəyi bilmələri deyil, nə bacardıqlarına diqqət yetirmək lazımdır. Bunun reallaşması isə fəal təlim metodları ilə mümkündür.

Fəal təlim metodu ilə keçirilən məşğələlər ənənəvi məşğələlərdən çox fərqlənir. Estetik tərbiyə üzrə məşğələlərdə 3-4 yaşlı uşaqlar sadə təsvir alətləri və vasitələrdən istifadə edərək elementar təbiət gözəllikləri və ya əşya şəkilləri çəkir, sadə kompozisiyalar qurur, tikinti materiallarından sadə evciklər və ya modellər düzəldir öz estetik hiss, maraq və zövqünü nümayiş etdirir. Eyni zamanda bu yaşda uşaqlar mədəni-estetik təsəvvürləri ilə yanaşıyaradıcılıq qabiliyyətlərini də göstərir: musiqi dinləyir, sadə mahnılar ifa edir, musiqi alətini tanımağa başlayır. Beləliklə, uşaqlar sadə yaradıcılıq qabiliyyətlərini biruzə verir; bayram və əyləncələrdə iştirak edir, bədii əsərlərə münasibət bildirər. Bütün bunların nəticəsi kimi onlarda sadə əmək vərdişləri də yaranır.

4-5 yaşlı uşaqlar isə bu aspektdə bacarıqlarını təlim standartlarına uyğun olaraq bir qədər mürəkkəbləşdirməyə səy göstərirlər.

5-6 yaşlarda məktəbəhazırlıq qruplarında bədii yaradıcılıq qabiliyyətlərini inkişaf etdirən spesifik xüsusiyyətə malik məşğələlər təşkil edilir. Rəsm məşğələlərin-

də uşaqlara əşyaları təsvir etməkdə artıq rəngli boya, molbert, palitra, fırçadan təyinatına görə istifadəyə imkan verilir. Verilmiş nümunə və ya sxemlər üzrə quraşdırma uşaqlarda gələcək üçün planlaşdırma bacarıqlarını da inkişaf etdirə bilir. Musiqi məşğələlərində musiqini dinləyərək xarakterinə, yaşına, melodiyasına, ritminə görə fərqləndirə bilmək, onlarda gələcək ifaçılıq bacarığı təzahür etdirir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların bədii yaradıcılıq qabiliyyətlərini uğurla inkişaf etdirmək üçün onların bu məşğələlərə marağını artıqmağın xüsusi əhəmiyyəti vardır. Incəsənətin bütün növləri məktəbəqədər yaşlı uşaqlarda estetik hisslərin yaranmasına zəmin yaratmalıdır. Musiqi, rəsm, nitqin inkişafı estetik tərbiyənin bilavasitə vasitələrindədndir. Uşaq fəaliyyətində bu vasitələr onların bədii qabiliyyətlərini və estetik hisslərini formalaşdırır. Məktəbəqədər təhsil müəssisələrində keçirilən məşğələlərdə bədii nümunələrdən geniş istifadə olunur. Bu nümunələr incəsənətin tələblərinə uyğun zövq oxşayan, başa düşünülən, ifa üçün əlverişli olmalıdır. Yapma, rəsm, kəsmə, quraşdırma məşğələlərində nümunələr göstərilməsinə xüsusi diqqət verilir. Müəllimin şəxsi nümunəsi estetik tərbiyə və bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması və inkişafında böyük rol oynayır. Müəllim mahnını özü ifa etməli, uşaqlar onun ardınca və ya birlikdə ifa etməlidirlər.

Məktəbəqədər yaşı uşaqların estetik tərbiyəsi və bədii qabiliyyətlərinin inkişafında musiqi məşğələlərinin rolu əvəzedilməzdir. Məktəbəqədər təhsil müəssisələrində musiqi məşğələlərinin üç istiqamətdə aparılır: musiqi dinləmək, mahnı oxumaq və rəqs etmək.

Musiqini dinləmək bacarığını kiçikyaşlı uşaqlara aşılamaq vacibdir. Dinlənilən musiqi haqqında məlumat verilməsi, səslərin notlarla ifadəsini öyrətmək uşaqlarda musiqiyə maraq və meyl yaradır. Mahnı öyrədilməsi müəyyən ardıcıllıqla, musiqi alətinin müşaiyəti ilə həyata keçirilir. Uşaqlar mahnını xorla oxuyur, bu bədii və pedaqoji əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsil müəssisələrində uşaqların musiqi aləti ilə tanışlığına, sadə musiqi əsərləri çalmaqlarına şərait yaradılmalıdır. Bu, onlarda bədii qabiliyyətlərinin inkişafına təkan verir.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi və bədii qabiliyyətlərinin inkişafında rəsm məşğələlərinində əhəmiyyəti böyükdür. Bu məşğələlər təsviri incəsənət vasitəsilə estetik tərbiyəni məqsədəuyğun və sistemli surətdə yerinə yetirməyə imkan yaradır. Eyni zamanda rəsm məşğələləri uşaqların görmə qabiliyyəti, təxəyyülü, zövq və bədii yaradıcılıq bacarıqlarını inkişaf etdirir və gözəllik yaratmağa zəmin yaradır.

Məktəbəqədər yaşlı uşaqlarda estetik tərbiyə və bədii yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün aparılan məşğələdənkənar işlərin forması və məzmunu müxtəlifdir.

Təbiət gözəlliklərin mənbəyi olaraq hər bir insanın zövqünü oxşayır, estetik hisslərini, maraq və meylini gücləndirir. Təbiət qoynuna gəzinti və ekskursiyalar məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsi və bədii yaradıcılıq qabiliyyətlərinin formalaşması və inkişafına müsbət təsir göstərir.

Təbiətin tükənməz gözəllikləri uşaqlara bədii zövq verməkdə, estetik hissləri artırmaqda incəsənət əsərlərindən daha çox təsir göstərir.

Rəqs məktəbəqədər yaşlı uşaqlar arasında ən geniş yayılmış bədii incəsənət növlərindəndir. Uşaqlar musiqi məşğələlərində səhnəciklərdə, bayram şənliklərində, tədbirlərdə həvəslə rəqs edirlər. Bu onların həyatına fərəh və sevinc gətirir. Rəqs zamanı uşağın estetik hissləri artır və bu, onu öz bədii qabiliyyətlərini cəmləməyə, təzahür etdirməsinə sövq edir. Uşaqlar nikbin, gümrah və fəal olurlar.

Bir sözlə, insanın hərtərəfli və ahəngdar şəxsiyyət kimi formalaşmasında estetik tərbiyənin xüsusi əhəmiyyəti olduğu danılmazdır.

Bu iş ailədən başlayır, təhsil ocaqlarında davam etdirilir. Bu yolda məktəbəqədər təhsil müəssisələrinin xüsusi rolu vardır.

## ƏDƏBİYAT


1. Abbasov A.N.Əlizadə H.Ə. Pedaqogika, Bakı, R, 2000
2. Sadıqov F. B. Pedaqogika. Bakı, 2006
3. Cəfərova Z. M/q müəssisə rəhbərinin stolüstü kitabı. Bakı, ABTPİ, 2015
4. Məktəbəqədər təhsil proqramı (kurikulum) Bakı, 2012
5. Məktəbəqədər təhsil müəssisəsinin nümunəvi nizamnaməsi. Bakı, 2012



**Сафарова Вюсаля Аббас гызы**


### ЭСТЕТИЧЕСКОЕ ВОСПИТАНИЕ И РАЗВИТИЕ НАЧАЛЬНЫХ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

### РЕЗЮМЕ


Эстетическое воспитание-это целенаправленный, систематической процесс воздействия на личность ребенка с целью воспитания у него способности видеть красоту окружающего мира, умения оценивать искусства и развития творческой деятельности. Дошкольник должен жить в красоте. Вся жизнь его должна быть наполнена эстетикой и красотой. А это имеет воспитательный смысл. От того, насколько успешно сформируется правильное эстетическое воспитание, восприятие действительности в самом раннем возрасте, зависит его становление как личности в более старшем возрасте. Чтобы успешно организовать эстетическое воспитание дошкольника нужно обеспечить необходимые условия.



**Safarova Vusala Abbas**


### Aesthetıc educatıon of preschool chıldren and development of prımary creatıve abılıtıes

### SUMMARY


Aesthetic edukation is the process of influencing a child`s personality in order to see beauty and create it. Aesthetic education creates and developers a sense of beauty in children. Children perceive kindness as beauty, thru to be beautiful both internally and physically. The goal of aesthetic education is to form an aesthetic attitude to nature, life, work, art.


*Rəyçi: dos. Ç.H.Məmmədova*